2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 7 sentyabr 2024-cü il tarixli 61 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 9 sentyabr 2024-cü il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə 60 saylı Quba-Qusar seçki dairəsi üzrə qeydə alınmış namizəd İsayev Zahir Qəzənfər oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 7 sentyabr 2024-cü il tarixli 61 saylı müracətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m**:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də müraciətin geri qaytarılması barədə rəy verilməlidir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 60 saylı Quba-Qusar seçki dairəsi üzrə qeydə alınmış namizəd İsayev Zahir Qəzənfər oğlunun 7 sentyabr 2024-cü il tarixli 61 saylı müraciəti şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan onu təqdim edən şəxsə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov